# Fərhad Bədəlbəyli pianizminin üslub çalarları



***Fərhad Bədəlbəyli haqqında yazmaq, özü də onun elmi və ifaçılıq fəaliyyətini, ictimai siyasi xadim kimi cəmiyyətdəki mövqeyini araşdırmaq o qədər də asan məsələ deyildir. Çünki o, heç bir mübaliğəsiz nadir insanlar sırasına daxil olmaqla, cəmiyyətimizin mənəvi inkişafında və ictimai tərəqqisində əvəzsiz rol oynayır.***

***Ona müxtəlif rakurslardan - artist, müəllim, bir neçə əsərlərin müəllifi, ictimai xadim kimi yanaşsaq qarşımızda özündə fitri istedadı, hədsiz fəallığı, sənətə vurğunluğu, insani mərdliyi, qibtə ediləcək sadəliyi və bu dünyaya fəlsəfi yanaşmağı bacaran bir insanın vahid obrazı dayanacaq.***

Diqqətçəkən güclü intuisiya hissi ilə birləşmiş parlaq şəxsiyyət, hökmlü və mərd idrak, bədii fantaziya hüdudlarının görünməzliyi, qarşısıalınmaz vulkanlı temperament, dəqiq, qərəzsiz zövq, fenomenal texniki keyfiyyətlər və zərif emosional həssaslıq onun qeyri adiliyinə dəlalət edən digər cəhətlərdir. Məhz bu cür yüksək keyfiyyətlər sayəsində F.Bədəlbəyli Azərbaycan fortepiano musiqisini nəinki dünya musiqisi səviyyəsinə yüksəldə bildi, hətta bu musiqi xəzinəsinə özünəməxsus, tamamilə yeni çalarlar da əlavə etdi. Özündə milli ilə ümumbəşərinin sıx sintezini əks etdirən bu yeni yaradıcılıq nümunəsi kəskin rəqabət şəraitinə baxmayaraq dünya fortepiano sənətinin keçilməzliklərini fəth etdi və Azərbaycan xalqının əsrlər boyu yaratdığı mədəni irsi yeni bir rəngdə, fərqli bir çalarda bütün dünyaya nümayiş etdirdi.

Görkəmli pedaqoq, xalq artisti, professor M.R.Brennerin tələbəsi olmaq şərəfini, müəlliminin ona aşıladığı professionallıq, müstəqil düşüncə tərzi, inam, yüksək pianoçuluq keyfiyyətlərini özündə cəmləşdirərək yeni sənət yarışlarına doğru gedən yola hazır olan pianoçu özünü Azərbaycan Dövlət Konservatoriyasının I kurs tələbəsi olduğu vaxtda "Marqarita Lonq" adına beynəlxalq müsabiqəyə keçirilən seçmə mərhələsində sınadı. Ədalətsizliklə qarşılaşsa da, bu vəziyyət pianoçunu sındıra bilmədi. Gənc F.Bədəlbəyli daha böyük əzmlə digər müsabiqələrə hazırlaşmağa başladı. Bu dəfə o yalnız qələbə ilə dönməyi qarşısına məqsəd qoydu.

1967-ci il Fərhad Bədəlbəyli yaradıcılığında yeni bir mərhələnin başlanmasından xəbər verir. Həmin il o, Çexoslovakiyanın Qrades-Kralova şəhərində keçirilən "B.Smetana" adına beynəlxalq müsabiqəyə dəvət alır. Həmin vaxtlar Konservatoriyanın II kursunda təhsil alan gənc Fərhad Bədəlbəyli ona bəslənilən ümidləri nəinki doğrul- d a - raq III dərəcəli mükafatı əldə etdi, habelə "Smetana əsərinin ən yaxşı ifaçısı" kimi xüsusi mükafata da layiq görüldü.

Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirilən pianoçuların IV Beynəlxalq müsabiqəsində azərbaycanlı pianoçunun ilk dəfə olaraq "Qran Pri" mükafatına layiq görülməsi milli fortepiano məktəbimizin səviyyəsini nümayiş etdirməklə yanaşı onun yeni, yüksək mərhələyə qədəm qoymasının bariz nümunəsi oldu. İlk dəfə idi ki, Azərbaycan fortepiano sənəti belə bir zirvəyə qalxırdı. Dünyanın ən nüfuzlu beynəlxalq müsabiqələrdən sayılan "Viana da Mota" adına pianoçuların IV Beynəlxalq müsabiqəsində 1968-ci ilə qədər ən yüksək dərəcəli mükafata dünyanın məşhur pianoçularından olan N.Ştarkman, V.Kraynov kimi sənətkarlar layiq görülmüşlər. Amma F.Bədəlbəylinin bu müsabiqədə "Qran Pri" mükafatına layiq görülməsi bir daha sübut etdi ki, elitar müsabiqələr yalnız inkişaf etmiş Avropa ölkələrinin nəzarətində deyil, burada "əyalət" adlandırıla biləcək uzaq guşələrin nümayəndələri də parlaq ulduz kimi bərq vura bilər.

Bu uğurlu zəfər sonradan onun yaradıcılığının yeni-yeni çalarlarını üzə çıxarmaqla Azərbaycan musiqi mədəniyyətində indiyə qədər bəlli olmayan izlər salmağa, bədii özünəməxsusluğunun əvəzolunmaz cizgiləri ilə seçilməyə başladı. Belə ki, F.Bədəlbəyli təfsirinin yaratdıgı təəssüratın "sirri" sırf pianoçuluq xüsusiyyətlərində deyil, məhz şəxsiyyətin iç dünyasındakı mənəvi-psixoloji keyfiyyətlərin toplusu ilə bağlı olduğu qısa bir zamanda ortaya çıxdı. Elə o zamanlar F. Bədəlbəylidə nəzərə çarpan və gələcək illər ərzində inkişaf edən, zənginləşən "o özəllik" sonralar Azərbaycan fortepiano sənətinin salnaməsində

onun görkəmli yer tutmasını təmin etdi. Pianoçunun bu uğurunda dəyanətinin, əzmkarlığının, məqsədyönlüyünün, zəhmətsevərliyinin rolu ilə birgə yuxarıda qeyd etdiyimiz fərdi-emosional keyfiyyətlərin də misilsiz əhəmiyyəti olduğunu hamı qəbul edir.

Dünya musiqi korifeylərinin keçdiyi həyat yolu göstərir ki, onlar zəngin təxəyyülün, dolğun idrakın və güclü şəxsiyyətin hesabına könülləri fəth edən əsərləri yarada bilirlər. F.Bədəlbəyli yaradıcılığı da əyani surətdə təsdiq edir ki, o hüdudsuz təxəyyülə, çox yetkin idraka, hərtərəfli inkişaf etmiş dünyagörüşə malik bir şəxsiyyətdir. Bədəlbəylinin musiqisi əyani surətdə təsdiq edir ki, bu musiqi nümunələri ən xırda təfərrüatlarına qədər onun şəxsiyyətinin ən tipik cizgilərini özündə ehtiva edir. Elə bu səbəbdəndir ki, F.Bədəlbəyli şəxsiyyətinin ən dərin və məxfi guşələrində onun yaratdığı və ifa etdiyi musiqi əsərləri özünün dolğun əksini tapır.

F.Bədəlbəyli yaradıcılığına nəzər salmaqla Azərbaycan musiqi mədəniyyətində spesifik bir mərhələnin öyrənilməsinə, onun ayrı-ayrı cəhətlərinin, xüsusən də fortepiano ifaçılığı sənətinin hərtərəfli təhlil və tədqiq edilməsinə nail olmaq olar. Çünki, Bədəlbəyli o sənətkarlardandır ki, onun bütün səyləri, yaradıcılıq planları milli pianoçuluq sənətində dünyanın ən qabaqcıl prinsiplərinin bərqərar edilməsinə, deməli, musiqi sənətimizdə özünü ifadə edən və yaradıcılıq sahələrinin tamamilə yeni bir mərhələyə qalxmasına, zamanın estetik bədii tələblərinin dolğun ödənilməsinə yönəlib.

F.Bədəlbəyli yaradıcılığı həm də bütöv bir dövr deməkdir. Bu dövr dərin ictimai-siyasi dəyişikliklər, koloritli şəxsiyyətlər və Azərbaycan musiqisinin zəngin inkişaf dövrüdür. Mədəniyyətimizin bəşəriyyətə bəxş etdiyi dühalardan olan Q.Qarayevin, F.Əmirovun, S.Hacıbəyovun, C.Hacıyevin, Niyazinin, Bülbülün, R.Behbudovun və digər korifey sənətkarların yaradıcılıqlarının çiçəkləndikləri ictimai-siyasi mühitdə gənc pianoçunun peşəkar bacarıq vərdişləri cilalanırdı.

F.Bədəlbəyli yaradıcılığında dünya mədəniyyətinin zənginlikləri milli mədəniyyətin və şəxsi istedadın prizmasından keçərək xüsusi bir özünəməxsusluq yaradır. O, mədəniyyət incilərinin sadəcə olaraq surətini çıxarmır, onları qəlbindən, təfəkkür süzgəcindən keçirərək hər bir detala, hər bir ştrixə yeni can və nəfəs verir.

O, səhnədə ilhamlanmış, təntənəli, gah ciddi şəkildə fikrə dalmış, gah da təbii və son dərəcə diqqətçəkici olur. Onun ifası fırtınalı aktivlik ilə bahəm son səsə qədər düşünülmüş və düzgün nizamlanmış ifadır. Onun "musiqisinin döyüntüsü" söz ilə çatdırılmağa müvəffəq olunmayacaq dərəcədə arasıkəsilməz həyəcan yaradır. Bu həyəcan yalnız ifanın deyil həmçinin yaradılışda olan sənətin dərinliklərinə nüfuz edən ifaçının həmin anlarda keçirdiyi yaradıcılıq həyəcanıdır. Bəlkə burada "mübtəla olmaq" ifadəsini işlətsək yanılmarıq. Çünki o, həmin anlarda ayrılmaz və ehtiraslı şəkildə ilham selinə aludə olmaq xüsusiyyətinə malikdir.

Bədəlbəyli səhnədə özünü "yenidən hasil" etmir. O, yalnız yaradır. Sanki öncədən bu yaradıcılıq təbinin heç bir sələfi yox imiş... O, hər səsin, hər frazanın həyəcanını əvvəldən yaşayaraq ifa edir. Onun ifasını dəfələrlə dinlədikdə belə ilkin təravəti duymaq mümkündür. Bu hal pianoçunun yeni təfsiri ilə əlaqədar deyil. Bu daha öncəki tapıntıların təkrarı da deyil. Bu təfsir heç bir maneə ilə sıxılmamış həyatın canlı və azad gözəllikləri ilə nəfəs alaraq yeni mahiyyətdə, hətta yeni görkəmdə təzahür edir.

Bədəlbəylinin ifa etdiyi əsərlərin təfsiri yalnız "duyulmuş" not mətni deyil. Onlar ifaçının daxili aləminin genişliyindən, assosiativ tellərin zənginliyindən yaranır. Ən əsası isə bu keyfiyyətlər böyük istedadın və zəka ilə çoxplanlı mədəniyyətin birləşdiyi romantik temperamentin göstəricisidir. Onun ifası məzmunlu, dərin fikirlərin məqsədyönlüyü ilə parlaq emosional dolğunluqla zəngindir. Orada həyati narahatlığın düşüncə mədəniyyəti ilə harmonik vəhdəti duyulur.

O, musiqi frazasının təbiətini ideal səviyyədə bilir və hiss edir. Onun zəngin tembr palitrasının rəngləri ifasının şairanəliyindən xəbər verir. Pianoçunun pedalizasiyası da poeziya ilhamının təsiri altında olur. Onun pianosu həm tam səsli, romantik musiqinin ruhuna cavab verən canlı və rəngarəng tembrliyi ilə yanaşı, klassik musiqinin ruhuna cavab verə biləcək tərzdə dəqiq, aydın, incə və kövrək olmaq iqtidarına malikdir. Onun yüngül, yumşaq toxunuşu ilə zərif, kövrək, sanki incə səhər mehi kimi qəlblərə yayılan səslər duyulur.

F.Bədəlbəylini ansambl ifaçısı kimi nəzərdən keçirəndə onun solo ifaçılığından yaranan təəssürat qədər parlaq və unudulmaz ifanın izləri yaddaşlara həkk olunur. Nəhəng akkordları, burulğanlı passajları, yüksək hərarətli musiqinin gözqamaşdırıcı təzadlığı, böyük, emosional, coşğun kulminasiyaları yüksək temperamentlə ifa edən pianoçu konsertmeyster qismində çıxış edəndə onun solo ifaçılığına xas keyfiyyətlər yeni libasa girərək konsertmeyster ustalığının yüksək nöqtəsinə inteqrasiya edir. Pianoçu müşayiət etdiyi ifaçının bir anlığa belə özünü onsuz təsəvvür edə bilməyən "ilham qaynağına" çevrilir.

F.Bədəlbəylinin musiqi hissiyyatı onun dərk prosesi ilə qırılmaz surətdə bağlıdır. Onun dəqiq, təzadlı, rəngarəng repertuarının təfsiri zamanı ifaçının ifa olunan əsərə daima yetkin baxışlarla nəzər saldı-





ğının şahidi oluruq. Pianoçunun repertuarı həmçinin əhatəliliyi , iri həcmliyi ilə seçilir. İ.Baxın, V.Motsartın, İ.Haydnın, L.Bethovenin, F.Şubertin, R.Şumanın, F.Şopenin F.Mendelsonun, E.Qriqin, F.Listin, K.Sen-Sansın, S.Prokofyevin, A.Skryabinin, S.Raxmaninovun, J.Gerşvinin, K.Debüsinin, M.Ravelin, Q.Qarayevin, F.Əmirovun, E.Nəzirovanın, V.Mustafazadənin, T.Quliyevin, C.Hacıyevin və başqa bəstəkarların musiqi incəsənətinə bəxş etdikləri sənət incilərinin əvəzsiz nümunələri F.Bədəlbəyli repertuarının aparıcı elementlərindəndir.

Pianoçu Bax musiqisinin intonasiya ifadəliyini polifonik inkişafın məntiqinə uyğun , fəlsəfi düşüncə tərzi ilə ifa edir. Motsart təfsirinin təbiiliyi, təravəti, həyati gəncliyi, nəcibliyi ecazkar çalarda diqqət çəkir. Bethoven ruhunun nəhəng həyati aktivliyi, simfonizmliyi Bədəlbəyli ifasında böyük fəlsəfi fikrin düşüncədə əksi kimi təzahür edir. Onun "Şopeni" iri həcmli olması ilə bahəm, zərif, həssas, insan qəlbinin kövrək tellərinə toxunacaq dərəcədə səmimi və sevgi duyğuları ilə doludur. Pianoçu Şubert musiqisinin lirik çırpıntısının səmimiliyini, hisslərin ismətini, saflığını, melodiyanın dolğunluğunu əsl alman musiqisinin cizgilərinə uyğun şəkildə təqdim edir. Bədəlbəyli ifasının ehtiraslı axını Şuman musiqisinin əhval-ruhiyyəsi, emosionallığı, Hofman, Heyne yaradıcılığının izi, hüdudsuz rəng çalarlarının koloristikliyi, poeziya aləminin füsunkar anları ilə ahəngləşərək yeni və özünəməxsus bir simada təqdim olunur. Ravelin və Debüsinin əsərlərində pianoçu təsviri incəsənətin mahir ustası kimi çıxış edir. Musiqi parçası sanki kətan üzərində əlvan boyalarla çəkilmiş lovhələr kimi rəngarəng çalarlar kəsb edərək iç dünyamızda zəngin təəssürat yaradır. Onun ifasında Raxmaninov musiqisi öz möhtəşəmliyi, əzəmətliyi ilə bahəm, təbiət lövhələrinin ən sirli guşələrini səmimiyyətlə dolu anlarını əks etdirərək ali insan hisslərinin tərənnümçüsü kimi çıxış edir. Skryabin musiqisinin burulğanlı uçuşları, alovlu cuşa gəlmələri, lirikanın səmimi anları , bəstəkara xas olan zamanı hiss etmək qabiliyyəti və davamlı təkamül Bədəlbəyli yaradıcılığında yeni bir mahiyyət kəsb etməklə bəstəkar üslubunun əsas cizgilərini isbatlamış olur.

Öz yaradıcılığında Azərbaycan bəstəkarlarının əsərlərinə xüsusi yer verən F.Bədəlbəyli onların yeni cizgilərini, milli fundamentini, klassik keyfiyyətlərini, müasir həyatın nəbzinin döyüntülərini həssaslıqla duyan təfsirçi kimi çıxış edir.

Q.Qarayev prelüdlərinin fəlsəfi aləmi, xüsusən IV dəftərə pianoçu tərəfindən duyulmuş əlaqəli keçid böyük maraq doğurur.

C.Hacıyevin "Balladası"nın ifası zamanı sanki pianoçu tariximizin ənginliklərinə baş vuraraq böyük Nizamidən, Füzulidən, Nəsimidən misallar gətirir. Gözlərimiz önündə ulu bir xalqın qocaman tarixinin təkrarolunmaz səhifələri canlanır.

Pianoçuya həsr olunan T.Quliyevin "Qaytağı"sı bir anlığa belə durmayan yanar hisslərin axını, ritmik, oynaq əhval-ruhiyyənin milli ruhda təcəssümüdür.

Şərqin qüdrəti, əzəməti, zəngin tarixi keçmişi, bəşər mədəniyyətinə verdiyi misilsiz töhfələr F.Bədəlbəylinin təfsirində F.Əmirov ilə E.Nəzirovanın fortepiano və orkestr üçün "Ərəb mövzusuna" yazılmış konsertində bütün çalarları ilə özünün bədii musiqi həllini tapmaqla bərabər musiqi mədəniyyətimizə yeni incilər bəxş etmək baxımından da həmişə diqqəti özünə cəlb edə bilmişdir.

F.Bədəlbəyli repertuarının ən parlaq əsərlərindən olan S.Prokofyevin fortepiano və orkestr üçün 1saylı konsertinin ifası zamanı qeyd etdiyimiz keyfiyyətlər daha qabarıq şəkildə üzə çıxır.

S.Prokofyevin fortepiano və orkestr üçün 1 saylı konserti rus musiqisinin ritmik enerjisinə çox güclü təkan verən bir hadisə, rus instrumentalizmində geniş əks-səda doğuran estrada virtuozluğu, rus musiqi təbinin emosional spekterində ironiya və qəddar yumorun əsasını təşkil edir. F.Bədəlbəyli ifasında Prokofyev musiqisinin bu məziyyətləri daha zəngin çalarda, yüksək emosional axınla müşayiət olunaraq bəstəkar fikrinin dəqiq və ifadəli bir tərzdə açılmasına kömək edir. Bədəlbəyli öz məzmunlu ifası ilə bu böyük sənət əsərinin mahiyyət çalarlarına nüfuz etməyi bacarır və onun, özünün ali ifaçılıq mədəniyyəti ilə daha uca zirvələrə qaldırılmasına müvəffəq olur.

S.Prokofyevin fortepiano və orkestr üçün 1 saylı konserti (1911-1912 ci illərin bəhrəsidir.Bu konserti, ilk ifaçısı S.Prokofyev orkestr ilə ilk çıxışı zamanı 25 iyul 1912-ci il tarixində "Moskva Xalq Evi" ndə tamaşaçılara təqdim etmişdir (I.Nestyev "Prokofyev" Moskva...1957- ci il s.68).)özünün səslənişi, təzadlılığı, ritmik müəyyənliyi ilə seçilir. Bütün bu xüsusiyyətlər F.Bədəlbəylinin temperamenti, fərdi ifaçılıq xüsusiyyətləri və sənətkarlıq keyfiyyətləri ilə üstüstə düşür. Bu səbəblərdən də, S.Prokofyevin 1saylı konsertini F.Bədəlbəyli ifasında dinləyərkən bu əsərin yeni vasitələrlə çatdırmasının, onun emosional ovsunlayıcı gücünün qat-qat artdığının şahidi olursan.

Prokofyev yaradıcılığına xas keyfiyyətlər - musiqi dinamizminin tələblərinə uyğun şəkildə ladın funksional fərqlənişi F.Bədəlbəyli ifasında musiqi palitrasının bütün rəngləri ilə çulğalaşaraq dinləyici auditoriyasını ehtizaza gətirir. F.Bədəlbəyli ifasında Prokofyevi dinləyən dinləyici təkcə musiqi aləminin sirli dünyasına deyil, həm də,

bu musiqinin yarandığı dövrün təlatümlü hadisələrinə də baş vura bilir. Özü də bilmədən, bir növ sanki bu hadisələrin iştirakçısına çevrilir. F.Bədəlbəylinin gənclik temperamenti, ehtiraslı ruhu, parlaq istedadı, Prokofyevin gənclik coşğusu ilə vəhdətləşərək xüsusi bir keyfiyyət çalarları əxz edir.

Bir hissəli poema formasında bəstələnmiş bu konsertdə Prokofyev musiqisinin tipik obrazları özündə akkordların, oktavaların nəhəng qatını, mürəkkəb "akrobatik" sıçrayışları və muncuqvari passaj texnikasını birləşdirərək Bədəlbəyli pianizmi ilə ahəngdar bir şəkildə çıxış edir.

Bütöv dramaturji formalı bu əsərin girişi mübariz, əzmkar, amiranə bir surətdə pianoçunun nizamlanmış, emosional əhvalı ilə ifa olunur. Konsert boyu giriş mövzusunun üç dəfə keçməsi zamanı pianoçunun enerji dolu ruhu formanın üç sütunlu, monolit bir tamlığını yaradır. O, bu mövzunu qətiyyətli və iradəli bir tərzdə təqdim edir. Pianoçu, şahanə - təntənəli səslənən girişdən sonra fortepianonun kadensiyasında mürəkkəb akkord sıçrayışlarını hədsiz dərəcədə təbii və məharətlə ifa edir.

Onun fortesinin səslənişi hüdudsuz əzəmətli olması ilə bahəm mükəmməl səsləniş tarazı, dəqiq müəyyən olunmuş dinamik tənasüblə tənzimlənərək hər akkordun, oktavanın ucadan deyil, dolğun ifasıdır. Əsas mövzuda cəld rəqs elementlərinin çox cingiltili, şəffaf və parlaq ifası diqqətimizi cəlb edir. Orkestrin ifaçı ilə növbələşərək səslənişi virtuoz yarış təəssüratı yaradır. Bu tokkata xarakterli hərəkətdən sonra qəmli, möcüzəvi xarakter daşıyan köməkçi mövzuda pianoçu matəm musiqisinə yaxın olan bütün elementlərinin göstərilməsinə müvəffəq olur.

Köməkçi mövzunun ikinci elementi çox gərgin, ekspressiya dolu axınla səsləndiyi qədər ona əks olaraq əvəzlənən ecazkar rəqs şən, məzəli və mürəkkəb fortepiano fiqurasiyaları ilə müşayiət olunaraq ifa olunur. Ekspozisiyadan sonra girişin təntənəli və əhəmiyyətli xarakterli mövzusu yenidən səslənir. "Andante-assai" epizodunda pianoçu böyük ustalıqla, nəcibliklə gizli qəlb guşələrinin dərinliklərinə nüfuz edir. Onun burada səslənən qammavari passajları "piano" fonunda yüngül, eyni zamanda mənalı və obrazı açan məqsədə xidmət yolunda çıxış edir.

Skertsovari işləmə hissəsindən sonra səslənən reprizdəki kadensiyanı pianoçu yüksək pafosla, virtuozluqla, böyük ruh yüksəkliyi ilə səsləndirir.

F.Bədəlbəyli konserti dinləyiciyə böyük, əzəmətli bir "axın" kimi təqdim edir. Bir an belə olsun o axından yaranan musiqi gərginliyi pozulmur. Mərdlik, sağlam enerji axını, intizamlılıq və özünücəmləmə, monumental sadəlik və fikirlərin məntiqi ardıcıllığı, diqqətçəkici dolğun səsləniş, cümlələrin aydın relyefi, möhkəm, sabit temp kimi keyfiyyətlər Bədəlbəyli təfsirinin "Bel sütununu" təşkil edir. Onun təfsiri Prokofyev musiqisinin ruhunu bütün təfərrüatları ilə çatdırır. Dinləyici temp, texniki çətinliklərə, qüvvə hünərinin nümayişinə deyil, insan ruhunun zənginliyinə aludə olur.

Onun ifasının ruhu azad, aktiv, hədsiz yaradıcılıq cəsarəti ilə zəngindir. Bütöv, uzun müddətli inkişaf, böyük konstruktiv vahidlərlə düşüncə, məqsədyönlük, səmimilik və ifanın həyati həqiqətliyi pianoçunun təfsirinin özülünü təşkil edir. Həmçinin onun təfsiri "kütləvilik", "anlaşıqlıq", geniş dinləyici auditoriyası tərəfindən qəbul olunan dəyərli üstünlüyə malikdir.

F. Bədəlbəylinin iri formalı əsərlərdə forma hissiyatı Azərbaycan çöllərinin, düzlərinin tərənnümüdür. Forma hissiyatı, səs, pedalizasiya kimi xüsusi elementlər F. Bədəlbəylinin ifasında cəmlənərək vahid kompleks yaradır ki, bu da onun ifasının tam və əvəzolunmaz üslubunu səciyyələndirir.

Pianoçu formaya, bəstəkar fikrinin açılması prosesinə laqeyd deyil. Bu an F.Bədəlbəylinin "daxili aləminin" meydana çıxması prosesi ilə müşayiət olunur. Burada söhbət yalnız həcmlilikdən, səmimilikdən, artistin yaradıcılıq məqsədlərinin realistik obrazlarından getməyərək, onları eyni zamanda ifa prosesində tətbiq etmək bacarığının vurğulanmasından gedir.

Bütün bu keyfiyyətlər yalnız istedadın deyil, həmçinin böyük ustalığın əlamətidir.

F. Bədəlbəylinin ifa üslubundan söz açarkən biz "artistizm" terminінə müraciət etsək yanılmarıq. Bu xüsusiyyət ən yüksək dərəcədə Bədəlbəyliyə xasdır. O, ifa zamanı qarşısıalınmaz ehtiyac hissi duyaraq tamaşaçılar ilə yaradıcılıq ünsiyyətinə qoşulur. Tamaşaçıların yaddaşlarında nəinki öz zəkasının dərinliyindən, həmçinin parlaqlığından iz qoymağa müvəffəq olur.

F. Bədəlbəylinin estetik təfəkkürü mahiyyətcə fəlsəfidir. Onun sənəti özünün həyata gənclik sevgisi ilə vurğunluğu qədər həyati aktivlik ilə dolğundur. Bu onun həqiqəti çox parlaq, fəal surətdə və müasir tərzdə qavrayışından irəli gəlir. Məhz onun bu keyfiyyətlərdən doğan iradi ram edilməzliyinin nəticəsidir ki, F.Bədəlbəylinin yaradıcılığında "dünyanın dərk edilməsi" dar çərçivəsindən çıxaraq musiqini istedad və fitri qabiliyyətin geniş məkanına çıxarır.

***Könül HÜSEYNOVA,***
***Bakı Musiqi Akademiyası***
***Musiqi tarixi kafedrasının aspirantı***